**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNIVERSITETI**

**Magistratura pilləsi üçün**

**İXTİSAS: 060112 - COĞRAFIYA MÜƏLLIMLIYI**

# İF-M 10457 "MƏZMUN XƏTTININ FORMALAŞDIRILMASI" fənninin

# P R O Q R A M I

**Bakı Dövlət Universiteti TMŞ yanında Tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi üzrə daimi fəaliyyət göstərən Komissiyanın qərarı ilə təsdiq edilmişdir ( protokol № )**

**Bakı 2016**

## MƏZMUN XƏTTININ FORMALAŞDIRILMASI

### İzahat vərəqi

«Məzmun xəttinin formalaşdırılması» fənni magistratura pilləsində "Coğrafiya müəllimliyi" istiqaməti üzrə «Coğrafiyanın tədrisi metodikası və metodologiyası» ixtisasında I kursun I semestrində 45 saat (30 saat – mühazirə, 15- laboratotiya işi ) həcmində tədris edilir.

«Məzmun xəttinin formalaşdırılması» kursunun tədrisinin sonunda tələblər:

***Bilməlidir:***

- kurikulumda məzmun xətti anlayışını təhlil etməyi;
- məzmun xətlərinin tərkibinə daxil olan əsas standartların məzmununu;
-əsas standartların funksiyasını təyin etməyi;
- alt standartların rolunu müəyyən etməyi

***Bacarmalıdır:***

- məzmun standartlarını bilik və bacarıq fəaliyyətinə görə qruplaşdırmağı;
- əsas və alt standartların bir biri ilə əlaqələndirməyi;
- alt standartları əsas standartlara uyğun qruplaşdırmağı.

***Yiyələnməlidir:***

- coğrafiya kurikulumunda orta məktəb coğrafiya fənninin məzmununu təhlil etməyə;
-coğrafi bilikləri deklorativ, prosedural və kontekstrual olmaqla təsnif etmək əsas və orta təhsil pilləsi və siniflər üzrə qruplaşdırmağa;
- coğrafi bacarıqları idraki, emosional və psixomotor olmaqla təsnif etməyə;
- əsas və orta təhsil pilləsi və siniflər üzrə qruplaşdırmağa.

Proqram həmdə magistr dissertasiyası üzərində müstəqil tədqiqatlar aparılmasında yardımçı vasitə rolunu oynaya bilər.

### Mövzülar üzrə saatların paylanması

| № | Mövzular | cəm | Ocümlədən | |
|---|---|---|---|---|
| | | | müh. | sem. |
| 1. | Məzmun xətti anlayışı | 2 | 2 | |
| 2. | Coğrafi məkan məzmun xətti üzrə təlim nəticələrinin təhlili | 4 | 2 | 2 |
| 3 | Təbiət məzmun xətti üzrə təlim nəticələrinin təhlili | 2 | 2 | |
| 4 | Cəmiyyət məzmun xətti üzrə təlim nəticələrinin təhlili | 4 | 2 | 2 |
| 5 | Məzmun xətləri üzrə əsas və alt standartların mahiyyəti | 4 | 2 | 2 |
| 6 | Məzmun standartlarında bilik komponentinin təhlili | 2 | 2 | |
| 7 | Məzmun standartlarında fəaliyyət komponentinin təhlili | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 8 | Fəaliyyət xətləri baxımından məzmun standartlarının təhlili | 2 | 2 | |
| 9 | VI sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi | 4 | 2 | 2 |
| 10 | VII sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi | 2 | 2 | |
| 11 | VIII sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi | 2 | 2 | |
| 12 | IX sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi | 4 | 2 | 2 |
| 13 | X sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi | 2 | 2 | |
| 14 | XI sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi | 4 | 2 | 2 |
| 15 | Məzmun standartlarının siniflər üzrə varislik baxımından təhlili | 3 | 2 | 1 |
| | Cəmi: | 45 | 30 | 15 |

**1.Məzmun xətti anlayışı** Məzmun xətti anlayışı. Müxtəlif fənnlər üzrə məzmun xətləri. Coğrafiya fənni üzrə məzmun xətlərinin mahiyyəti. Coğrafiya kurikulumunun şagirdyönümlü, nəticəyönümlü, şəxsiyyətyönümlü və tələbyönümlü xüsusiyyəti. Kurikulumun əsas prinsipləri. Fənn kurikulumunun strukturu. Coğrafiya kurikulumunun məzmunu (1),(2),(3), (4),(5).

2. **Coğrafi məkan məzmun xətti üzrə təlim nəticələrinin təhlili.** Coğrafi məkana dair biliklər- məhəldə cəhətlərin təyin edilməsi. Məsafələrin ölçülməsi, onların kartoqrafik təsvirlər vasitəsilə təqdim edilməsi, tələb olunan ərazilərin səth quruluşu, coğrafi xüsusiyyətlərinin müqayisəli təhlili, hər hansı əraziyə dair əlavə məlumat toplamaq bacarığının formalaşdırılması,şagirdlərdə idrak fəaliyyətinin inkişaf etdirilməsi. Nəzəri biliklərin praktik olaraq tətbiq edilməsi vərdişlərinin yaradılması Coğrafi məkan məzmun xətti üzrə əsas standartların “1.1. Coğrafi kəşflər nəticəsində cəmiyyətdə və xəritədə baş verən dəyişikliklərə aid bilik və bacarıqlar nümayiş etdirir; 1.2. Yerin Günəş sistemində mövqeyi və hərəkətlərinə dair bilik və bacarıqlar nümayiş etdirir və 1.3. Kartoqrafik təsvirlər üzərində bilik və bacarıqlar nümayiş etdirir” bilik və fəaliyyət baxımından təhlil edilməsi (1),(2),(3), (4),(5).

3. **Təbiət məzmun xətti üzrə təlim nəticələrinin təhlili.** “Təbiət” məzmun xəttinin şagirdlərdə təbiət və cəmiyyətin birgə dərk edilməsində aparıcı rola malik olan coğrafiya fənni kimi məzmun xəttinin əsas standartının təhlili: 2.1. Coğrafi təbəqədə baş verən hadisə və proseslərin ekocoğrafi nəticələrini mənimsədiyini nümayiş etdirir. Təbiət məzmun xətti üzrə alt standartların məzmun baxımından təhlil edilməsi onların deklorativ, prosedural və kontekstrual olmaqla qruplaşdırmaq. Təbiət məzmun xətti üzrə alt standartların fəaliyyət baxımından təhlil edilməsi və onların idraki, emosional və psixomotor olmaqla qruplaşdırmaq(1),(2),(3), (4),(5).

**4. Cəmiyyət məzmun xətti üzrə təlim nəticələrinin təhlili.** «Cəmiyyət» məzmun xəttinin şagirdlərdə təbiət və cəmiyyətin birgə dərk edilməsində aparıcı rola malik olan coğrafiya fənni kimi məzmun xəttinin əsas standartının təhlili: 3.1. Dünya əhalisinin müxtəlifliyinin səbəblərinə dair bilik və bacarıqlar nümayiş etdirir və 3.2. Cəmiyyətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinə aid bilik və bacarıqlar nümayiş etdirir. Cəmiyyət məzmun xətti üzrə alt standartların məzmun baxımından təhlil edilməsi onların deklorativ, prosedural və kontekstrual olmaqla qruplaşdırmaq.

Cəmiyyət məzmun xətti üzrə alt standartların fəaliyyət baxımından təhlil edilməsi və onların idraki, emosional və psixomotor olmaqla qruplaşdırması(1),(2),(3), (4),(5).

5.**Məzmun xətləri üzrə əsas və alt standartların mahiyyəti.** Məzmun xətləri. Məzmun xətlərin üzrə təlim nəticələri. Məzmun standartları. Kurikulumun şagirdlərdə təfəkkür, şəxsi keyfiyyət və qabiliyyətlərin inkişafında, bacarıqların qazanılmasındakı rolu (1),(2),(3), (4),(5).

6. **Məzmun standartlarında bilik komponentinin təhlili.** Biliyin kateqoriyaları məzmun xəttinin standartlarının təhlili. Məzmun standartının komponentləri. Biliyin kateqoriyaları L.Anderson və D.Krasvol təsnifatına görə Coğrafi məkan məzmun xəttinin standartlarının təhlili. Məzmun standartlarında fəaliyyət kateqoriyalarının müəyyən edilməsi. Faktoloji, prosedural, konseptual və metakoqnitiv biliklər. Öyrənmə prosesi haqqında biliklər(1),(2),(3), (4),(5).

7**. Məzmun standartlarında fəaliyyət komponentinin təhlili.** Fəaliyyət növləri. İdrak taksonomiyası. Bencamin Blüm, Kennis Mur taksonomiyasına görə məzmun xəttinin təhlili. Məzmun standartlarında fəaliyyət kateqoriyalarının müəyyən edilməsi (1),(2),(3), (4),(5).

**8.Fəaliyyət xətləri baxımından məzmun standartlarının təhlili**. Coğrafiya fənninin tədrisində 8 fəaliyyət xəttinin – problemin həlli, mühakimə yürütmə, əməkdaşlıq (ictimaiyyətlə əlaqə), müqayisə və təhlil etmə, tətbiqetmə, proqnozlaşdırma, sistemləşdirmə, təsnifetmə, təqdimetmənin reallaşması. Məzmun standartlarında fəaliyyət komponentinin təhlili Kurikulum üzrə tərtib edilən dərsliklərdə fəaliyyət xətlərinin reallaşdırılması (1),(2),(3), (4),(5).

9.**VI sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi**. Əsas və alt standartların təhlil edilməsi. Məzmun standartlarında biliklərin deklorativ, prosedural, kontekstrual olmaqla sistemləşdirmək. Standartlarda fəaliyyət bacarıqlarının idraki, komunukativ-affektiv və psixomotor bacarıqlar baxımından təhlil edilməsi (1),(2),(3), (4),(5).

10.**VII sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi.** Standartların VI sinif məzmun xətləri üzərində qurulması. Əsas və alt standartların təhlil edilməsi. Məzmun standartlarında biliklərin deklorativ, prosedural, kontekstrual olmaqla sistemləşdirmək. Standartlarda fəaliyyət bacarıqlarının idraki,

komunukativ-affektiv və psixomotor bacarıqlar baxımından təhlil edilməsi(1),(2),(3), (4),(5).

11.**VIII sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi.** Standartların VI və VII siniflərin məzmun xətləri üzərində qurulması. Əsas və alt standartların təhlil edilməsi. Məzmun standartlarında biliklərin deklorativ, prosedural, kontekstrual olmaqla sistemləşdirmək. Standartlarda fəaliyyət bacarıqlarının idraki, komunukativ-affektiv və psixomotor bacarıqlar baxımından təhlil edilməsi(1),(2),(3), (4),(5).

12. **IX sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi**

Standartların VI, VII və VIII siniflərin məzmununu üzərində qurulması. Əsas və alt standartların təhlil edilməsi. Coğrafi biliklərin əsas təhsil pilləsində yekunlaşması. Məzmun standartlarında biliklərin deklorativ, prosedural, kontekstrual olmaqla sistemləşdirmək. Standartlarda fəaliyyət bacarıqlarının idraki, komunukativ-affektiv və psixomotor bacarıqlar baxımından təhlil edilməsi(1),(2),(3), (4),(5).

13.**X sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi**

Standartların tam orta təhsil pilləsi üzərində qurulması. Coğrafi məkan, təbiət və cəmiyyət məzmun xətlərinin coğrafi düşüncə tərzinin yaradılması üçün sintezi. Əsas və alt standartların təhlil edilməsi. Məzmun standartlarında biliklərin deklorativ, prosedural, kontekstrual olmaqla sistemləşdirmək. Standartlarda fəaliyyət bacarıqlarının idraki, komunukativ-affektiv və psixomotor bacarıqlar baxımından təhlil edilməsi(1),(2),(3), (4),(5).

14.**XI sinif üzrə məzmun xəttinin standartlarının bilik və fəaliyyət baxımından təhlil edilməsi**

Standartların tam orta təhsil və X sinif pilləsi üzərində qurulması. Coğrafi məkan, təbiət və cəmiyyət məzmun xətlərinin coğrafi düşüncə tərzinin yaradılması üçün sintezi. Əsas və alt standartların təhlil edilməsi. Coğrafi biliklərin tam orta təhsil pilləsində yekunlaşması. Məzmun standartlarında biliklərin deklorativ, prosedural, kontekstrual olmaqla sistemləşdirmək. Standartlarda fəaliyyət bacarıqlarının idraki, komunukativ-affektiv və psixomotor bacarıqlar baxımından təhlil edilməsi(1),(2),(3), (4),(5).

15. **Məzmun standartlarının siniflər üzrə varislik baxımından təhlili**. Ümumi orta təhsil səviyyəsində coğrafi məkan məzmun xətləri üzrə təlim nəticələrinin əsas istiqamətlərinin təhlil edilməsi. Alt standartların siniflər üzrə yaş səviyyəsinə uyğun olaraq inkişafı. Coğrafi biliklərin siniflər üzrə bir-birini tamamlaması (1),(2),(3), (4),(5).

## Ədəbiyyat

**Əsas**

1.Süleymanova A.Y, Təhsilin əsasları, Dərs vəsaiti Bakı "Təhsil" nəşriyyatı , 2014, 399 s.

2.Veysova Z. A. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə "Ümummi orta təhsil səviyyəsi üçün yeni fənn kurikulumlarının tətbiqi Coğrafiya fənni üzrə təlimçilər üçün vəsait "İnkişaf" elmi mərkəzi, 2014, 168 s.

3. www. Kurikulum.az

**Əlavə**

4. Əhmədova M, Əliyev M, Qasımlı m və başqaları. Müəllim hazırlığının və orta təhsilin perspektivləri.( Qərb təhsil sisteminin  təcrübəsi əsasında) müəllimlər üçün vəsait. 2Adiloğlu" nəşriyyatı  çakı 2005. 472 s.
5.  "Kurikulum" Elmi-metodik jurnalı.  2008, 152 s.